***“Ulduz” jurnalı ilə “Vektor” Beynəlxalq Elm Akademiyasının böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyi ilə əlaqədar keçirdiyi poeziya müsabiqəsi başa çatdı. Qaliblərə pul mükafatı, diplom və Nəsiminin Türkiyədə dərc olunmuş”Divan”ı təqdim olundu.***

## I yer
## Emin PİRİ



**TARİX MÜƏLLİMİ**

Əli Kərimə

Xəzərin qucağına sığınan
bir ovuc kənd
əl açıb dənizdən
torpaq dilənir.

Dəniz torpaq yerinə
layla deyir dalğalarıyla,
yatırdır bir ana kimi.
Bizə qul olmağı anamız öyrətdi!
İstiyə, aclığa, ya da qandal kimi bəlayə
etiraz eləyib ağlayanda
bir ana laylasıyla susdurulduq
“köləliyə xoş gəldin” – deyib.

Sayır şagirdim müqavilələri –
imperialist qardaşlarının “mərhəmətini” :
“Azərbaycan bölüşdürüldü!
Bölüşdürüldü!...”
Əl uzadıb dağları göstərir :
– Qafqaz sıra dağları...
bir az başdaşlarına oxşayır,
bircə yazısı çatışmır:
“Burda bir xalq uyuyur...
Torpağın üstündən əli üzülüb,
Torpağının altının səsini duyur...
Tarım çəkilmiş neft boruları
Atamın təzyiqli damarlarına bənzəyir.
Ürəyinə qayıtmırsa,
bəs hara axır bu qan?”

Sayır torpaqların işğal tarixini:
“ölərəm, əldən getsə, vətən” deyənlər
uzunömürlü kimi təqaüdə düzüldülər
işğaldan sonra.

Heç vaxt keçmədim o sinifdə
2011-in “ərəb baharı”nı
Bilirdim,
o, həmin il
anasını itirdiyini xatırlayacaq.
Hələ də uğuldayır qulağımda:
“Anamda xərçəng çıxanda
bütün xərçənglərə yalvarmışdım dəniz kənarında
“özünüzdən olanı aparın, gedin” deyə...

Bu gün qonaqlarımız tanrılardı
Məbədə çevrilər otağı
Qonaqlar: Ra, Anubis, Osiris…
Bu qədər tanrı necə uduzdu
bir islam Allahına?!

Şagirdlərimi gözlərindən tanıyıram,
oxumuşam gözlərində
tarixi də, saflığı da.
– Bu gün dərsimiz 20 Yanvar…
– Bəs demədilər, o gecə qorxar uşaqlar güllə səsindən?!

Erməni əsgərləri irəliləyir,
mərmilər partlayır...
Xocalıda qətliam olacaq...
613…
Elə bu yerdə
dayanın deyə,
təngnəfəs bir uşaq qaçıb
vurur tənəffüs zəngini.
Beləcə, bitirir müharibəni…

Yenə gecikir maaş...
Evdən çıxanda
anamın dualarını qoydum cibimə
yolpulu əvəzi...

Əlini atar cibinə tarix müəllimi,
cibi ürəyindən vurar,
ürəyi cibində vurar.
Eranın əvvəllərіdi cibindəki manatın sayı...
Sən çətin çatasan 1501-ə, 2017-yə.
Alın yazısı itkin düşən şagirdin
oxunar gözlərində:
“Canavar südünə
susayıb dodaqlarım.
Ergenekondan bəri ilk dəfə
belə yalnızam, azam, çox azam!”

...Qonşumuzdakı Bahadır dayı
bir əlini Berlində itirib

Ulduz.- 2019.- №5.-S.17-18.

hələ 1945-də.
Qocalıb indi, bütün bədənini gəzir qırışlar.

Gəzib hər yerini, axtarıb tapıb,
bircə tapa bilmir həmin əlini.
O qırışların o əli axtardığı,
o əlsiz darıxdığı kimi özlədim səni, Vətən!

Və minalanmış ərazidir tarix,
yerini unutsan...